# Milli musiqi günü

***Son baharın min büsat qurduğu bu gözəl zamanda gündən-günə gözəlləşən Ağcabədi, çal-çağırlı, toylu-büsatlı, xoş avazlı bir musiqi dünyasını xatırladır. Sentyabr ayı bu yerlər daha çox qonaqlı-qaralı olur. Hər yerdən Üzeyir bəy ocağına «Milli musiqi günü»nü qeyd etməyə qonaqlar gəlir.***

*Neçə min çiçək dərib,*
*Gəzdi sənət bağını.*
*Qibləgaha döndərib,*
*Yurdumun torpağını,–*
*Kərəm oldu, Sənan oldu Üzeyir,*
*Min havalı kaman oldu Üzeyir.*



Bəli, Ağcabədidə «Milli musiqi günü» dahi bəstəkar Ü.Hacıbəyovun anadan olmasının 122-ci ildönümünün daha təmtəraqlı, gözəl keçirilməsi üçün rayon ictimaiyyəti, ziyalılar, bütün musiqisevərlər rayon mədəniyyət və turizm şöbəsinin bu nəcib təşəbbüsünə qoşulmuşdular. Ayın əvvəlindən başlayaraq, rayonun bütün mədəni-maarif müəssisələrində, musiqi məktəblərində «Milli musiqi günü» qeyd olunurdu.

Budur, sentyabr ayının 18-i saat ondur. Hamı bayram əhval-ruhiyyəsindədir. «Sənsiz»in tüğyan edən sədaları insanların başı üzərindən ərşə yüksəlir. Böyük Üzeyir bəy harayı ulu Şeyx Nizaminin ruhuna qovuşur.

Şəhərin M.Rəsulzadə küçəsi ilə böyük bir izdiham Üzeyir Hacıbəyov adına Ağcabədi Şəhər İncəsənət Məktəbinə doğru irəliləyir. Məktəbin qarşısında dahi bəstəkarın abidəsi önünə gül-çiüək dəstələri qoyur.

Mədəniyyət və turizm şöbəsinin müdiri R.Quliyev tədbiri açaraq bütün musiqisevərləri təbrik edir, qonaqları salamlayır. Üzeyir Hacıbəyov adına şəhər incəsənət məktəbinin direktoru Sevda Malışova, rayon mədəniyyət evinin direktoru Yusif Kamal, rayon tarix-diyarşünaslıq muzeyinin direktoru Elmira Adıgözəlova, müəllimə Vüsalə Zeynalova çıxış edərək Üzeyir bəyin həmişəyaşarlığını təsdiq edən ölməz əsərlərindən söz açdılar. Əsl bayram şənliyi başlandı.

Şəhər incəsənət məktəbinin müəllim və şagirdlərindən ibarət orkestrinin ifasında bəstəkarın «Koroğlu» operasının «Üvertüra»sının sədalarının sehrinə düşən şənlik iştirakçıları bir-birinin ardınca Üzeyir Hacıbəyovun «Leyli və Məcnun»», «O olmasın, bu olsun», «Arşın mal alan» dünyasını da seyr etdilər.

«Qaragöz», «Sevgili canan», «Sənsiz», «Cəngi» qəlblərə hakim kəsildi. Qəmbər Qəhrəmanovun, Fazil Heydərovun, Arzu Abbasovun, Hicran Məmmədovanın maraqlı çıxışları tamaşaçıları günün şuaları altında saxlamağa məcbur etdi.

Tədbirin sonunda Ağcabədi RİHB-nın müavini Ə.Tapdıqov çıxış edərək «Milli musiqi günü» münasibəti ilə Üzeyirsevərləri təbrik etdi. O, Ağcabədi RİH başçısı rayon rəhbərliyinin tədbir iştirakçılarına təbrik və salamlarını yetirərək bildirdi ki, məhz S.Məmmədovun təşəbbüsü ilə şəhərimizin mərkəzində yerləşən park Ü.Hacıbəyovun adını daşıyacaq. Parkda yenidənqurma işləri aparılır və burada böyük bəstəkara abidə ucaldılacaqdır.

**Y.KAMAL,**
**Ağcabədi rayon mədəniyyət evinin direktoru**